Azərbaycan Respublikası
Mərkəzi Bankının İdarə Heyətinin
“07” mart 2024-cü il tarixli
qərarı ilə təsdiq edilmişdir
Protokol № 11

# AZƏRBAYCAN RESPUBLİKASI MƏRKƏZİ BANKININ

# BAZAR DAVRANIŞLARININ TƏNZİMLƏNMƏSİ DEPARTAMENTİ HAQQINDA

# Ə S A S N A M Ə

**BAKI - 2024**

## 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Azərbaycan Respublikası Mərkəzi Bankının Bazar Davranışlarının Tənzimlənməsi departamenti (bundan sonra - Departament) Azərbaycan Respublikası Mərkəzi Bankının (bundan sonra - Mərkəzi Bank) mərkəzi aparatının struktur bölməsidir.

1.2. Departament öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununu, Azərbaycan Respublikasının qüvvədə olan digər normativ hüquqi aktlarını, Mərkəzi Bankın normativ xarakterli aktlarını, İdarə Heyətinin və daxili komitələrin qərarlarını, Mərkəzi Bank üzrə əmrləri, sərəncamları və bu Əsasnaməni rəhbər tutur.

1.3. Departament bu Əsasnamə ilə müəyyən olunmuş funksiyaların yerinə yetirilməsi prosesində Mərkəzi Bankın digər struktur bölmələri və qurumları ilə fəaliyyətini əlaqələndirir.

## 2. DEPARTAMENTİN FƏALİYYƏTİNİN ƏSAS MƏQSƏDİ

Departamentin fəaliyyətinin əsas məqsədi ölkədə bazar davranışlarına təsir edən amilləri qiymətləndirmək, riskləri müəyyən etmək, bu risklərin maliyyə sektoruna inamın təsirini ölçmək məqsədilə müxtəlif model və alətlər formalaşdırmaq, risklərin minimallaşdırılması üzrə maliyyə xidmətləri istehlakçılarının və investorların hüquqlarının müdafiəsi siyasətini və nəzarət çərçivəsini formalaşdırmaq, habelə ölkədə maliyyə sahəsi üzrə müasir bilik və bacarıqların formalaşması və yayılmasının səmərəli təşkilini həyata keçirməkdir.

## 3. DEPARTAMENTİN ƏSAS FUNKSİYALARI

Departamentin əsas funksiyaları aşağıdakılardır:

3.1. bazar davranışları alətlərinin tətbiqi ilə bağlı qiymətləndirmələrin aparılması və bazar davranışları siyasətinin müəyyən olunması;

3.2. maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulduğu halda nəzarət subyektlərinin bazar davranışlarını tənzimləyən normativ xarakterli aktların hazırlanması, o cümlədən maliyyə məhsulları və xidmətlərinin minimum şəffaflıq standartlarının formalaşdırılması;

3.3. istehlakçıların və investorların hüquqlarının qorunması istiqamətində müxtəlif indikatorların formalaşdırılması və ictimaiyyətə açıqlanmasının təmin edilməsi;

3.4. bazar davranışları normativlərinin və tələblərin tətbiqi, habelə səlahiyyətlərinə

aid digər məsələlər üzrə nəzarət subyektlərinə, həmçinin Mərkəzi Bankın nəzarət funksiyalarını həyata keçirən struktur bölmələrinin əməkdaşlarına və digər aidiyyəti struktur bölmələrinə metodoloji dəstəyin göstərilməsi;

3.5. öz təşəbbüsü ilə və ya digər struktur bölmələrlə birgə geniş ictimaiyyət üçün mərkəzi bankçılıq, habelə maliyyə bazarları, o cümlədən bank, kapital bazarları, sığorta və ödəniş xidmətləri və ödəniş sistemləri sahəsində biliklərin artırılmasına xidmət edən müxtəlif maarifləndirici tədbirlərin keçirilməsi, habelə bu tədbirlərin keçirilməsi üçün zəruri maarifləndirici materialların, vasitələrin, sənədlərin və digər resursların hazırlanması;

3.6. maliyyə sektorunda kvalifikasiya tələb edən vəzifələrə tələblərlə bağlı siyasətin formalaşdırılması, habelə peşəkar sertifikalaşdırma çərçivəsinin hazırlanması;

3.7. zəruri olduğu hallarda nəzarət subyektlərinin fəaliyyətinə nəzarəti həyata keçirən Mərkəzi Bankın struktur bölmələri tərəfindən nəzarət subyektlərində aparılan yoxlamalarda iştirak edilməsi;

3.8. səlahiyyətləri daxilində xarici tənzimləyicilər və beynəlxalq təşkilatlar, maliyyə qurumları, yerli və xarici digər maraqlı tərəflərlə ilə qarşılıqlı əlaqələrin qurulması;

3.9. Departamentin büdcə layihəsinin hazırlanması və icrasının təmin edilməsi;

3.10. Departamentə daxil olan müraciətlərə baxılması, məktub və sorğulara cavabların hazırlanması;

3.11. rəhbərliyin tapşırığı ilə departamentin fəaliyyət istiqamətləri üzrə digər işlərin yerinə yetirilməsi.

## 4. DEPARTAMENTİN TƏŞKİLATİ STRUKTURU VƏ İDARƏ OLUNMASI

4.1. Departamentin təşkilati strukturu aşağıdakı şöbələrdən ibarətdir:

4.1.1. Bazar davranışları siyasəti şöbəsi;

4.1.2. Bazar davranışlarına nəzarətin metodologiyası şöbəsi;

4.1.3. Maliyyə məlumatlılığı və peşəkar inkişaf şöbəsi.

4.2. Departamentin fəaliyyətinə direktor rəhbərlik edir. Departament direktoru işdə olmadıqda onun səlahiyyətlərini direktor müavini (olduqda) həyata keçirir, bu şərtlə ki, rəhbərlik tərəfindən direktor vəzifəsinin icrası şöbə rəislərindən birinə və ya digər şəxsə həvalə edilməsin.

4.3. Departamentin nomenklatur vəzifəli şəxsləri Mərkəzi Bankın İdarə Heyəti tərəfindən və ya İdarə Heyətinin müəyyən etdiyi qaydada vəzifəyə təyin və vəzifədən azad olunurlar.

## 5. DEPARTAMENTİN İŞİNİN TƏŞKİLİ

**5.1. Bazar davranışları siyasəti şöbəsi:**

5.1.1. bazar davranışlarının tənzimləmə və nəzarəti üzrə Mərkəzi Bankın strateji hədəflərinə, yerli və qlobal maliyyə sisteminin mövcud vəziyyətinin və inkişaf perspektivlərinin təhlilinin nəticələrinə əsaslanaraq maliyyə bazarlarının iştirakçılarının reputasiyasının, istehlakçı və investorların hüquqlarının qorunmasına yönəldilmiş tənzimləmə və nəzarət siyasəti üzrə təkliflərin hazırlanmasında Mərkəzi Bankın digər aidiyyəti struktur bölmələri ilə birgə iştirak edir;

5.1.2. bazar davranışları alətlərinin tətbiq imkanlarını qiymətləndirir;

5.1.3. maliyyə xidmətlərinin istehlakçıları və investorların şikayətləri və ya hüquq pozuntuları üzrə analitik hesabatlar hazırlayır;

5.1.5. maliyyə xidmətlərində (məhsullarında) baş verən dəyişiklikləri və yenilikləri dövri izləyir və maliyyə xidmətlərinin (məhsullarının) test məqsədli alışların həyata keçirilməsini təşkil edir;

5.1.7. maliyyə sisteminə inamın qorunması məqsədilə mübahisələrin alternativ həlli mexanizmləri ilə bağlı təkmilləşdirici təkliflər hazırlayır;

5.1.8. müştərilərə xidmət səviyyəsinin yüksəldilməsinin təmin edilməsi üçün məlumatların açıqlanması standartlarını müəyyənləşdirir;

5.1.9. Departament rəhbərliyinin tapşırığı ilə Mərkəzi Bankın rəhbərliyi və struktur bölmələri üçün arayışlar və materiallar hazırlayır;

5.1.10. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.2. Bazar davranışlarına nəzarətin metodologiyası şöbəsi:**

5.2.1. bazar davranışlarının tənzimləmə və nəzarət sahələri üzrə qabaqcıl beynəlxalq təcrübənin və standartların tətbiqi imkanlarını qiymətləndirir;

5.2.2. Mərkəzi Bankın bazar davranışlarının tənzimləmə və nəzarət siyasətinə, ayrı-ayrı nəzarət sahələri üzrə qabaqcıl beynəlxalq təcrübənin və standartların uyğun olaraq nəzarət subyektlərinin fəaliyyətinin tənzimlənməsinə və nəzarətin təşkilinə dair normativ-metodoloji bazanı hazırlayır, mövcud bazanı təkmilləşdirir;

5.2.3. zərurət yarandıqda maliyyə xidmətləri bazarının iştirakçıları üzrə requlyativ çərçivəyə nəzərdə tutulan dəyişikliklərə nəzarət subyektlərinin, istehlakçıların və investorların mövqeyini öyrənir, qiymətləndirir, nəzarət subyektləri ilə daim dialoqun olmasını təmin edir;

5.2.4. maliyyə xidmətləri bazarının iştirakçılarının fəaliyyətini tənzimləyən normativ hüquqi aktların hazırlanmasında iştirak edir;

5.2.5. bazar davranışları normativlərinin və tələblərin tətbiqi, habelə səlahiyyətlərinə aid digər məsələlər üzrə nəzarət subyektlərinə, həmçinin Mərkəzi Bankın nəzarət əməkdaşlarına və digər aidiyyəti struktur bölmələrə metodoloji dəstək göstərir;

5.2.6. maliyyə sektoru istehlakçıları və investorların inamını artırmaq üçün hüquqi pozuntular zamanı hüquqi məsuliyyət tədbirlərinin müəyyənləşdirilməsi ilə əlaqədar təkliflər hazırlayır;

5.2.7. səlahiyyətinə aid məsələlər üzrə arayışlar və materiallar hazırlayır;

5.2.8. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

**5.3. Maliyyə məlumatlılığı və peşəkar inkişaf şöbəsi:**

5.3.1. cəmiyyətdə maliyyə məlumatlılığının artırılmasına xidmət edən müxtəlif maarifləndirici vasitələrin, məhsulların və internet resurslarının hazırlanmasını və inkişafını təmin edir;

5.3.2. Mərkəzi Bankın məqsədləri və funksiyaları üzrə müvafiq intellektual resursların yaradılmasını, çəkilişlərin aparılmasını və montaj olunmasını təmin edir, mövcud resursları inkişaf etdirir;

5.3.3. maliyyə sistemində insan resurslarının inkişafı məqsədi ilə digər dövlətlərin mərkəzi bankları, maliyyə bazarlarını tənzimləmə və nəzarət orqanları, digər əlaqəli qurumlar, habelə xarici və yerli təlim-tədris institutları ilə əməkdaşlıq edərək lazımi informasiya mübadiləsi aparır, qarşılıqlı işgüzar əlaqələr qurur, habelə, peşəkar tələblərlə bağlı çərçivəni hazırlayır;

5.3.4. müxtəlif indikatorlar müəyyənləşdirərək insan kapitalı risklərinin prudensial və bazar davranışları nəzarət sisteminə inteqrasiyası üzrə təkliflər verir, Mərkəzi Bankın maliyyə bazarlarına nəzarəti həyata keçirən struktur bölmələrinə metodoloji dəstək göstərir;

5.3.5. Mərkəzi Bankın digər struktur bölmələri ilə birlikdə geniş ictimaiyyət üçün mərkəzi bank və maliyyə bazarları, o cümlədən iqtisadiyyatın digər sahələri üzrə seminar, təlim və mühazirələrin keçirilməsini təşkil edir, eyni zamanda bu istiqamətdə məzmunların yaradılmasını təmin edir;

5.3.6. müxtəlif kriteriyalara (yaş, istifadə edilən məhsullar, riskə məruz qalma dərəcəsi, prioritetlər, istehlakçı davranışı, internet davranışı və s.) uyğun ayrı-ayrı hədəf qruplarının diaqnostikasını həyata keçirir və uyğunlaşdırılmış proqramların

hazırlanmasında iştirak edərək cəmiyyətin yeni maliyyə xidmətlərinə tələbatını stimullaşdırır;

5.3.7. səlahiyyətinə aid məsələlər üzrə arayışlar və materiallar hazırlayır;

5.3.8. rəhbərliyin tapşırıqlarına uyğun olaraq fəaliyyət istiqamətləri üzrə digər işləri yerinə yetirir.

## 6. YEKUN MÜDDƏA

Bu Əsasnamə təsdiq edildiyi gündən qüvvəyə minir.

**Mərkəzi Bankın sədri** **Taleh Kazımov**